## Yevgeni Zamyatin

# BİZ

Tərcüməçi:
Ziya Fazil

qanun nəşriyyatı

**Евгений Замятин**

# МЫ

Antiutopiya, hər hansı bir fəlakətdən sonra (ikiyüzillik müharibə) sağ qalmış insan cəmiyyəti. Yaşıl Divarla təbiətdən, bütün Yer üzündən təcrid olunmuş şüşə dövlət. Hər şey göz qabağındadır və hər şey eynidir: eyni paltarlar (yunif) və şüşədən tikilmiş şəffaf mənzillər, şəffaf küçələr, binalar, divarlar. Ailə yox, bağlılıq yox, yalnız çəhrayı sevgi talonu var... Kim kimə istəsə, abunə yazıla bilər, amma təyin edilən vaxtda. Hər şey nəzarət altındadır, "nömrə"lərin hər addımı, hər hərəkəti son saniyəsinə qədər hesablanıb: gəzinti, yemək, yuxu, sevgi, paltar, musiqi zövqü, təhsil, bilik, düşüncə tərzi... Hətta uşaqların dünyaya gəlməsi, onların sayı da Vahid Dövlət tərəfindən tənzimlənir.

Əlbəttə ki, bütün total cəmiyyətlərdə olduğu kimi ən üstün, toxunulmaz, ali və qüdrətli, ağıllı və səhvsiz bir Havadar da haradansa yuxarılardan bu "nömrə"ləri idarə edir. Tamamilə nizamlanmış cəmiyyətin dayaqları o qədər möhkəmdir, idarə etmək üçün lazım olan fikirlər beyinlərə o qədər dərindən yeridilib ki, nə vaxtsa kiminsə əsrlərlə oturuşmuş, cəmiyyətə yeridilmiş qaydaları dəyişmək istəyəcəyinə nəinki inam qalmayıb, hətta bu cür fikirləşən insanların mövcudluğu da mümkün deyil.

Amma... Yaşıl Divarın yanında, şüşə qapağın altında tarixi eksponat kimi qorunub saxlanan Qədim Evin qeyri-şəffaf divarları, dəhlizləri, qapıları arxasında nə isə baş verir. Yaşıl Divarın şüşəsi arxasından kiminsə vəhşi nəzərləri baş qəhrəmanın – D-503-ün, "İnteqral" ulduz gəmisinin İnşaatçısının yatmış yaddaşını yerindən tərpədir, təsadüfən (təsadüfənmi?) gəzintidə tanış olduğu İ-330 "nömrə"lərə məxsus olmayan qədim, vəhşi hissləri yerindən oynadır...

Yevgeni Zamyatinin "Biz" romanının əsas sualı, yəqin ki, belə olmalıdır:

"Sevgi bəşəriyyəti xilas edəcək, yoxsa tamamilə yer üzündən siləcək?"

Sovet dövründə qadağan edilmiş, anti-utopiya janrının rəsmi olaraq başlandığı, insan şəxsiyyətinin bir "nömrə" səviyyəsinə endirildiyi "bərabərlər cəmiyyəti" haqqında yazılmış bu roman indi təkcə rus deyil, həm də XX əsr dünya ədəbiyyatının klassik əsərlərindən biri hesab olunur.



Евг. Замятин

1884–1937

# MÜNDƏRİCAT


*1-ci qeyd. Konspekt:*
**ELAN. ƏN MÜDRİK XƏTT. POEMA** ........ 9
*2-ci qeyd. Konspekt:*
**BALET. KVADRAT HARMONİYA. İKS** ........ 12
*3-cü qeyd. Konspekt:*
**PENCƏK. DİVAR. LÖVHƏ** ........ 20
*4-cü qeyd. Konspekt*
**BAROMETRLİ VƏHŞİ. EPİLEPSİYA. ƏGƏR** ........ 25
*5-ci qeyd. Konspekt:*
**KVADRAT. DÜNYANIN AĞALARI.FAYDALI-XOŞ FUNKSİYA** ........ 31
*6-cı qeyd. Konspekt:*
**HADİSƏ. LƏNƏTƏ GƏLMİŞ "AYDINDIR". 24 SAAT** ........ 35
*7-ci qeyd. Konspekt:*
**KİRPİK TÜKÜ. TEYLOR. BƏNGOTU VƏ İNCİÇİÇƏYİ** ........ 44
*8-ci qeyd. Konspekt:*
**İRRASİONAL KÖK. R-13. ÜÇBUCAQLI** ........ 51
*9-cu qeyd. Konspekt:*
**LİTURGİYA. YAMB VƏ XOREY. ÇUQUN ƏL** ........ 58
*10-cu qeyd. Konspekt:*
**MƏKTUB, MEMBRAN. TÜKLÜ MƏN** ........ 64
*11-ci qeyd. Konspekt:*
**...YOX, BACARMIRAM, QOY BELƏ OLSUN, KONSPEKTSİZ** ........ 74
*12-ci qeyd. Konspekt:*
**SONSUZLUĞUN MƏHDUDİYYƏTİ. MƏLƏK. POEZİYA HAQQINDA DÜŞÜNCƏLƏR** ........ 81
*13-cü qeyd. Konspekt:*
**DUMAN. SƏN. TAMAMİLƏ AXMAQ BİR HADİSƏ** ........ 86
*14-cü qeyd. Konspekt:*
**"MƏNİM". OLMAZ. SOYUQ DÖŞƏMƏ** ........ 93
*15-ci qeyd. Konspekt:*
**ZƏNG. GÜZGÜ DƏNİZİ. MƏN ƏBƏDİ ODDA YANACAĞAM** ........ 96
*16-cı qeyd. Konspekt:*
**SARI. İKİÖLÇÜLÜ KÖLGƏ. XƏSTƏ KÖNÜL** ........ 102
*17-ci qeyd. Konspekt:*
**ŞÜŞƏ ARASINDAN. MƏN ÖLDÜM. DƏHLİZLƏR** ........ 112
*18-ci qeyd. Konspekt:*
**MƏNTİQİ CƏNGƏLLİKLƏR. YARALAR VƏ PLASTIR. BİR DƏ HEÇ VAXT** ........ 120
*19-cu qeyd. Konspekt:*
**ÜÇÜNCÜ DƏRƏCƏLİ SONSUZ KİÇİK. QAŞQABAQLI. SÜRAHİDƏN** ........ 128
*20-ci qeyd. Konspekt:*
**BOŞALMA. İDEYALAR MATERİALI. SIFIR QAYA** ........ 136

*21-ci qeyd. Konspekt:*
**MÜƏLLİF BORCU. BUZ ŞİŞİR. ƏN ÇƏTİN SEVGİ....................140**
*22-ci qeyd. Konspekt:*
**DONMUŞ DALĞALAR. HƏR ŞEY TƏKMİLLƏŞİR. MƏN MİKROBAM....................149**
*23-cü qeyd. Konspekt:*
**GÜLLƏR. KRİSTALIN ƏRİMƏSİ. ƏGƏR....................154**
*24-cü qeyd. Konspekt:*
**FUNKSİYANIN HÜDUDU. PASXA. HƏR ŞEYİN ÜSTÜNDƏN XƏTT....................160**
*25-ci qeyd. Konspekt:*
**SƏMADAN ENMƏ. TARİXİN ƏN BÖYÜK QƏZASI. MƏLUMUN SONU....................165**
*26-cı qeyd. Konspekt:*
**DÜNYA YERİNDƏDİR. SƏPKİ. 410....................175**
*27-ci qeyd. Konspekt:*
**HEÇ BİR KONSPEKT – OLMAZ....................180**
*28-ci qeyd. Konspekt:*
**HƏR İKİSİ. ENTROPİYA VƏ ENERJİ. BƏDƏNİN QEYRİ-ŞƏFFAF HİSSƏSİ....................188**
*29-cu qeyd. Konspekt:*
**ÜZDƏ İPLƏR. QEYRİ-TƏBİİ KOMPRESSİYA....................198**
*30-cu qeyd. Konspekt:*
**SONUNCU RƏQƏM. QALİLEYİN SƏHVİ. DAHA YAXŞI OLMAZMI?....................202**
*31-ci qeyd. Konspekt:*
**MÖHTƏŞƏM ƏMƏLİYYAT. HƏR ŞEYİ BAĞIŞLADIM. QATARLARIN TOQQUŞMASI....................207**
*32-ci qeyd. Konspekt:*
**İNANMIRAM. TRAKTORLAR. İNSAN QIRINTISI....................217**
*33-cü qeyd. Konspekt:*
**(KONSPEKTSİZ, TƏLƏSİK, SONUNCU)....................226**
*34-cü qeyd. Konspekt:*
**SƏRBƏST BURAXILANLAR. GÜNƏŞLİ GECƏ. RADİOVALKİRİYA....................227**
*35-ci qeyd. Konspekt:*
**SAĞANAQ. KÖK. QƏTL....................239**
*36-cı qeyd. Konspekt:*
**BOŞ SƏHİFƏLƏR. XAÇPƏRƏST TANRISI. ANAM HAQQINDA....................247**
*37-ci qeyd. Konspekt:*
**İNFUZOR. QİYAMƏT. ONUN OTAĞI....................253**
*38-ci qeyd. Konspekt:*
**(BİLMİRƏM, HANSI. BƏLKƏ DƏ, BÜTÜN KONSPEKT – ATILMIŞ BİR PAPİROS BARƏDƏ).....258**
*39-cu qeyd. Konspekt:*
**SON....................262**
*40-cı qeyd. Konspekt:*
**FAKTLAR. ZƏNG. MƏN ƏMİNƏM....................270**



*1-ci qeyd*
*Konspekt:*
## ELAN. ƏN MÜDRİK XƏTT. POEMA

Mən sadəcə bu gün Dövlət Qəzetində dərc edilənin üzünü sözbəsöz köçürürəm:

*"120 gündən sonra "İNTEQRAL"ın tikintisi başa çatır. Birinci "İNTEQRAL"ın dünya fəzasına yüksəlməsinin möhtəşəm, tarixi saatı yaxındadır. Min il əvvəl sizin qəhrəman əcdadlarınız bütün yer kürəsini Vahid Dövlətin hökmünə tabe etdilər. Sizi isə daha möhtəşəm qəhrəmanlıq gözləyir: od püskürən, elektrik cərəyanlı, şüşə "İNTEQRAL"la Kainatın sonsuz tənliyini inteqrallaşdırmaq. Siz başqa planetlərdə bəlkə*



*də hələ vəhşi azadlıq halında yaşayan naməlum məxluqları təfəkkürün xeyirxah əsarətinə təhkim etməlisiniz. Əgər onlar bizim onlara riyazi dəqiqliklə hesablanmış xoşbəxtlik gətirdiyimizi başa düşməsələr, onda bizim borcumuz onları xoşbəxt olmağa məcbur etməkdir. Lakin biz silahdan əvvəl sözü sınaqdan keçiririk.*

*Havadarın adından Vahid Dövlətin bütün nömrələrinə elan edilir:*

*Hər kəs, hər kim ki özünü bacarıqlı sayır, Vahid Dövlətin gözəlliyi və möhtəşəmliyi haqqında traktatlar, poemalar, manifestlər, mədhiyyələr və digər əsərlər yazmağa borcludur.*

*Bu, "İNTEQRAL"ın aparacağı birinci yük olacaq.*

*Yaşasın Vahid Dövlət, yaşasın nömrələr, yaşasın Havadar!"*